# Minskdə Azərbaycan Ticarət Evi açılıb




*Belarus Respublikasının paytaxtı Minsk şəhərində Belarus və Azərbaycan Respublikalarının dövlət və hökumət nümayəndələrinin, o cümlədən Azərbaycan-Belarus Parlamentlərarası əlaqələr üzrə işçi qrupu üzvlərinin, həmçinin iş adamlarının iştirakı ilə Azərbaycan Ticarət Evinin açılışı mərasimi olub.*

Mərasimdə respublikadan gedən nümayəndə heyətinin tərkibində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və rayonun bir qrup iş adamı da iştirak edib.

Ticarət Evinin "Made in Azerbaijan" brendinin Belarus bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının



bu ölkəyə ixracının genişləndirilməsi istiqamətində fəaliyyət göstərməsi nəzərdə tutulub.

Açılış mərasimində Azərbaycanın 25-dən çox şirkətində, o cümlədən Qəbələ rayonunda istehsal edilən müxtəlif növ ərzaq və qida məhsulları sərgilənib.

Mərasimdə çıxış edənlər Minskdə Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından mühüm addım olduğunu qeyd ediblər.

Sonra Azərbaycanın müstəqillik illərində qazandığı uğurlara həsr olunan film nümayiş etdirilib, Azərbaycan incənət ustalarının ifasında muğam və milli musiqilərimiz səsləndirilib.

Daha sonra nümayəndə heyəti Azərbaycan Ticarət Evi, burada daimi nümayiş etdirilən Azərbaycan məhsullarının sərgisi və Azərbaycan investisiyalı Logistika Mərkəzi ilə tanış olublar.

**«Qəbələ»**

## Seminar-müşavirə keçirilib

Qəbələ Rayon İcra Hakimiyyətində yerli inzibati ərazi nümayəndəliklərinin əməkdaşları üçün maarifləndirici seminar-müşavirə keçirilib.

Tədbiri RİH-nin başçısı Səbuhi Abdullayev açaraq, icra nümayəndəlikləri tərəfindən həyata keçirilən notariat hərəkətləri barədə qanunvericilikdə olan əlavələr və dəyişikliklər barədə məlumat verib, təsdiq olunmuş yeni əsasnaməyə ciddi əməl olunmasını tövsiyə edib.

Seminarda «Notariat haqqında» Azərbaycan Respublikası Qanununa edilmiş dəyişikliklərə əsasən inzibati ərazi nümayəndəlikləri tərəfindən həyata keçirilən notariat hərəkətləri istiqamətində yeni müddəalar və qarşıya çıxan çətinliklər ətraflı müzakirə olunub.

Müşavirə iştirakçılarını maraqlandıran çoxsaylı suallara Qəbələ regional «ASAN xidmət» Mərkəzinin hüquqşünasları aydınlıq gətirib. Bununla bağlı mərkəz tərəfindən yerli icra nümayəndəliklərinə müntəzəm olaraq hüquqi köməkliklər göstəriləcəyi bildirilib.

Pilot layihə kimi bu yeniliyin ilk olaraq rayonun Mıxlıqovaq kənd inzibati ərazi nümayəndəliyində, daha sonra digər icra nümayəndəliklərdə tətbiq olunması qərara alınıb.

**«Qəbələ»**

# Uşaqlar cəmiyyətin gələcəyidir

*1950-ci il iyun ayının 1-də BMT Baş Assambleyası tərəfindən təşkil olunmuş «Qadınların Beynəlxalq Konfransı»nda 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsi dünü kimi qeyd etmək qərara alınmışdır. Hər il dünyanın 190-a yaxın ölkəsində, o cümlədən Azərbaycanda bu əlamətdar gün qeyd olunur.*





Bütün demokratik dövlətlərdə olduğu kimi, Azərbaycanda da insan haqlarının qorunmasına xüsusi önəm verilir. Təbii ki, uşaq hüquqları da insan haqlarının ən mühüm və həssas hissələrindən biridir. Uşaqların bizim gələcəyimiz və ümumiyyətlə ölkəmizin gələcəyi olduğunu nəzərə alaraq onların müdafiəsinə hamılıqla qoşulmaq borcumuzdur.

Azərbaycanda uşaq problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət uşaq siyasəti ölkəmizdə uşaqların hərtərəfli və ahəngdar inkişafının təmin edilməsinə yönəlmişdir. Ulu öndər dəfələrlə vurğulamışdır ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Gələcəyimiz olan uşaqların asudə vaxtlarının səmərəli və maraqlı təşkil olunması, sağlam böyüməsi, onların təhsilinin təşkili və hüquqlarının qorunması hər zaman dövlətimizin diqqət mərkəzində olmuşdur.

Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə rayon icra hakimiyyəti tərəfindən xüsusi tədbirlər planı hazırlanmış, bütün yaşayış məntəqələrində bu əlamətdar günə həsr olunmuş silsilə tədbirlər təşkil olunmuşdur.



Bütün bunların yekunu olaraq iyunun 1-də Qəbələdə Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə ümumrayon tədbiri keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, RİH aparatının əməkdaşları, hüquq mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilatların kollektivləri, məktəblilər və ictimaiyyət nümayəndələri iştirak etmişlər. Onlar əvvəlcə mədəniyyət mərkəzində bayramla əlaqədar təşkil edilmiş rəsm və tətbiqi sənət satış-sərgisi ilə tanış olmuşlar. Sərgilənən nümunələrin əksəriyyəti tamaşaçılar tərəfindən alınmışdır. Əldə edilən vəsaitin rayon uşaq və ailələrə dəstək mərkəzində sağlamlığı məhdud olan uşaqlarla əlaqədar həyata keçirilən layihələrə xərclənməsi nəzərdə tutulmuşdur.

Sonra bayram şənliyi Heydər Əliyev Parkında ümumtəhsil məktəblərindən uşaq yaradıcılığı mərkəzinə cəlb edilmiş şagirdlərin, uşaq bağçalarında tərbiyə alan balacaların ifasında konsert proqramı ilə davam etdirilmişdir.

Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək uşaqları, valideynləri, bütün tədbir iştirakçılarını 1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə təbrik etmiş, ölkəmizdə uşaqlara xüsusi məhəbbət, diqqət və qayğı olduğunu vurğulamış, onların Vətənə layiqli vətəndaşlar kimi böyüməsi, cəmiyyətdə sağlam mövqe tutması üçün Azərbaycan dövləti tərəfindən hər cür şərait yaradıldığını qeyd etmişdir.

Rayon təhsil şöbəsi metodika kabinetinin müdiri Arifə Bayramova çıxışında Azərbaycanda uşaq siyasətinin əsasının ümummillli lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, ulu öndərin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir, ölkə başçısı cənab İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın bu sahədə həyata keçirdikləri tədbirlər bu ənənələrin hələ uzun illər yaşayıcağına, inkişaf edəcəyinə və uşaqlarımızın taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir.

Günün ikinci yarısınadək davam edən bayram şənliyi uşaqların yaddaşında xoş izlər buraxmışdır.

**"Qəbələ"**